# Sözlə çəkilmiş tablolar



Sabir Rüstəmxanlı, VHP sədri, millət vəkili



***Son** illərdə ədəbiyyatımızın yaşlı nəsliylə cavan nəsli arasında hərdən səngiyən, hərdən qızışan mənasız, Azərbaycan ziyalısını gözdən salan və buna görə də dolayı yolla düşmən dəyirmanına su tökən savaşda adı ən çox hallandırılan, ən çox tənqid edən və ən çox da tənqidə məruz qalan qələm sahiblərindən biri Rasim Qaracadır.*

"Hələ gəncdir", "böyüyəndə ağlı başına gələr" qınaqları ilə yaşı gəlib qırx beşi haqlayıb. Məncə, bu yaş yazarın xırda mətbuat dedi-qodularından qopub masaya, kağıza bağlanaraq, xəyalında yaşatdığı ən mühüm əsərini yazmaq, daşımalı olduğu ən ağır yükün altına girmək yaşıdır.

Rasim Qaraca yeni nəsil yazarlarımızın liderlərindəndir və heç şübhəsiz, istedadlı adamdır. "İstedadlı şair" də deyə bilərdim, ancaq Rasimi mənə sevdirən təkcə onun orijinal poeziyası deyil, həm də bacarıqlı bir ədəbiyyat təşkilatçısı olmasıdır. Bənzərsiz, çağdaş dünya duyumu ilə yaşayan, yenilikçi bir şair olan Rasim "Azad Yazarlar Ocağı" xəttilə gördüyü işlərdə də, buraxdığı kitablar və nəşr etdiyi "Alatoran" adlı ədəbiyyat dərgisində də öz prinsiplərinə sadiqdir.

"Azad Yazarlar Ocağı" dövlətdən maliyyə dəstəyi almayan, çətinliklə dolanan bir qurumdur. Amma mənə qalsa, məhz gənclərə, həm də onların ən istedadlılarına və ən iddialılarına yardım edilməlidir.

Əsl istedad axar suya bənzəyir, axdıqca durulur, özü-özünü təmizləyir. Gənclərin eksperimentlərinə dözümsüz münasibət gülüncdür. Çünki böyük ədəbiyyat sonu olmayan bir eksperiment işidir; axtarış qurtaranda, sənət də qurtarır.

Bir vaxt Rasimin "Anlamsız şerləri" məni də əsəbiləşdirmişdi. Ancaq sonra ilk şer kitabını oxuyanda onun poetik dünyasını o qədər ürəkdən sevdim ki, həmin şerləri qınamağa sözüm qalmadı. O şerlər gözümdə bir muğam ifaçısının sözsüz zəngulələrinə, bir tablonun fon rənglərinə, bir xalçanın qıraq haşiyələrinə döndü. Yeni insanın özü-özüylə zümzümə eləməsinə niyə qızmalıyıq ki!

İlk kitabını Rasim "İnkar" iddiasıyla təqdim etmişdi. Mən inkarçı deyiləm, mühafizəkaram. Atamın, babamın, özümdən əvvəlki insanların, keçmiş yazıçıların böyüklü-balacalı bütün xidmətlərinə hörmətlə yanaşıram. Bununla belə, köhnəni inkar etmək nəticə etibari ilə yeni bir yolun başlanğıcıdırsa, buna da böyük sayqı duyuram.

Rasim Qaraca köhnə yolu, köhnə arabanı inkar etsə də, köhnə yükdən və ədəbiyyatın bütün əbədi hədəflərindən imtina etməyib. Bu mənada şerlərinin ruhu bütün sərt boyaları və tragik ağrıları ilə mənə son dərəcə doğmadır.

Poeziya insan duyğularının sonsuzluğu və tükənməzliyini göstərən bir sənətdir. Rasim Qaracanın şerləri çağdaş Azərbaycan gəncinin yaşam və duyğularının yeni və son dərəcə rəngarəng bir qatını açır. Onun bir sıra şerləri payızın, qışın, baharın rənglərinə boyanıb. Bu əlvan rənglər o qədər canlıdır ki, Rasim Qaracanın şerlərini sözlə çəkilmiş tablolara çevirir. Bu baxımdan sürrealist bir dəqiqliklə yazılmış və epik genişliyə qanad açan şerlərindən başlamış, "birlər" adlandırdığı kiçik şerlərinə qədər - bütün yaradıcılığından kifayət qədər misal gətirmək olar. Məsələn:

*ölmüş insanın telefonunda*
*incə bir səs: "aradığınız insan*
*şəbəkə xidməti xaricində..."*

*vəya*

***pul əvəzinə***
***kiçicik bir öpüş qoy***
***açılmış uşaq ovuclarına.***

Rasimin bütün kiçik şerləri belədir və hər birində iri həcmli əsərin ağırlığı var.

Savaş, sıxıntılı həyat, çağdaş dünyanın insanı əzib ucuzlaşdırması.., bir sözlə, həyatın acı, amansız üzü Rasim Qaracanın şerlərinin əsas motividir. Bu, onu böyük Azərbaycan ədəbiyyatının yoluna və ənənələrinə bağlayan başlıca cəhətdir.

**Məncə, Rasim Qaraca ədəbiyyatda əsas sözünü hələ bundan sonra deyəcək. Gənc qələm dostumu 45 yaşı münasibəti ilə təbrik edir, ona və təmsil etdiyi ədəbi nəslə yaradıcılıq fəaliyyətlərinin bütün sahələrində uğurlar arzulayıram!**